**Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutunun ərəbdilli əlyazmaların tədqiqi şöbəsinin aparıcı elmi işçisi, ilahiyyat üzrə fəlsəfə doktoru Səbinə Ələsgər qızı Nemətzadənin Azərbaycan Respublikası Prezidenti Yanında Elmin İnkişafı Fondunun 5-ci mobillik qrantı çərçivəsində Türkiyə Respublikasının İstanbul şəhərindəki Mərmərə Universitetində "İslam sənət tarixində əlyazmaların bədii tərtibat xüsusiyyətləri" mövzusundakı qısamüddətli elmi təcrübəkeçmə layihəsinin həyata keçirilməsi haqqında hesabat**

**Grant № EİF-Mob-5-2014-2(17)-14/09/5**

Azərbaycan Respublikası Prezidenti Yanında Elmin İnkişafı Fondunun 5-ci mobillik qrantının (Grant № EİF-Mob-5-2014-2(17)-14/09/5) maddi dəstəyi ilə həyata keçirilən "İslam sənət tarixində əlyazmaların bədii tərtibat xüsusiyyətləri" mövzusundakı qısamüddətli təcrübəkeçmə Türkiyə Respublikasının İstanbul şəhərindəki Mərmərə Universiteti İlahiyyat fakültəsi, İslam tarixi və sənətləri (Türk-İslam sənət tarixi) bölümündə 21 oktyabr-20 noyabr 2004-cü il tarixləri arasında baş tutmuşdur. Təcrübəkeçmənin etapları işin daha səmərəli və müsbət nəticəli ola bilməsi üçün bir-neçə elmi qurumun sıx və qarşılıqlı əməkdaşlığı ilə həyata keçirilmişdir. Trening, brifing, kurs və dərs xarakteri daşıyan təcrübəkeçmə yuxarıda adı çəkilən qurumun İlahiyyat fakültəsiylə yanaşı, Gözəl Sənətlər fakültəsi, İslam Araşdırmaları Mərkəzi (İSAM), Memar Sinan Universiteti Ədəbiyyat fakültəsi sənət tarixi bölümü, Gözəl Sənətlər fakültəsi Gələnəksəl Türk sənətləri bölümü, Kubbealtı Akademisi Kültür Ve Sanat Vakfı kimi elm və sənət ocağlarında olmuşdur. Mərmərə Universiteti İlahiyyat fakültəsinin, İslam Araşdırmaları Mərkəzinin və dərs keçən professor-müəllim heyətinin şəxşi əlyazma kolleksiyaları elmi təcrübəkeçmənin daha effektli, səmərəli və məhsuldar olmasına şərait yaratmışdı. Təçrübəkeçmə zamanı əlyazmalarla bağlı İslam sənətləri sahəsindəki nəinki Türkiyədə, hətta dünyada tanınmış elm və sənət

adamlarının bilik və təcrübələrindən bəhrələnmək imkanına nail olmuşam. Qeyd etmək istəyirəm ki, bu insanların hər biri tərəfindən layihə və belə bir layıhəyə dövlətimizin Elmin İnkişafı Fondu vasitəsiylə verdiyi dəstək böyük rəğbətlə qarşılanmışdır. Bu sahədə elmi və təcrübi əməkdaşlığımızın gələcəkdə də diqqət mərkəzində olmasını arzu etdiklərini bildirmişlər. Layihənin yerinə yetirilməsində iştirak edən, zaman və əmək sərf edən, daha doğrusu təcrübəkeçmə müddətində bilik və təcrübələrindən faydalanılan elm və sənət insanlarının adlarını qeyd etmək vacibdir. Prof.Dr.Murittin Serin (İSAM), Prof.Dr.Çiçek Derman, Prof.Uğur Derman, Prof.Dr.Faruk Taşkale, Prof.Dr.Banu Mahir, Prof.Dr.Tanju Seyhan, Prof.Dr.Ahmet Sacit Açıkgözlü, Doç.Dr.Aziz Doğanay, Yrd.Doç.Dr.Gülnur Duran, Gürcan Mavili, Səadət Qazi, Hikmet Barutcugil, Efdalüddin Kılıc. Layihə çərçivəsində İslam Araşdırmaları Mərkəzində (İSAM) Prof.Dr.Muhittin Serindən İslam xətt sənəti, xətt sənətinin tarixi inkişafı, xətt növləri, İSAM kitabxanasının zəngin əlyazma kolleksiyaları bazasında əsərlərdə xətlərin, aid olduğu dövrün və s. təsbiti kimi mövzularda təcrübə keçmişəm. Qeyd etmək lazimdir ki, professor M.Serin “Hat sanatı ve meşhur hattatlar” kitabı başda olmaqla, İslam xətt sənəti və tarixiylə bağlı tədqiqatların və dəyərli əsərlərin müəllifidir. İslamda Təzhib sənəti mövzusunda Prof.Dr.Fatma Çiçek Dermandan dərs almışam. Çiçək xanım İslam sənət tarixçisi olmaqla yanaşı məşhur xanım-müzəhhib Rikkat Kunt xanımın tələbəsi olmuşdur. Çiçək xanım Derman Türk təzhib-miniatür sənətçisidir. Və 2012-ci ildə Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin “Kültür ve Sanat Büyük Ödülü”nə layiq görülmüşdür. İslam mədəniyyətində Minyatür sənəti mövzusunda Prof.Dr.Fatma Banu Mahir, Cild sənəti ve əbru mövzusunda Prof.Uğur Dermandan dərs almışam. Cild tətbiqi üzrə Gürcan Mavilinin, əbru tətbiqindən Hikmət Barutçugilin, təzhib tətbiqindən Gülnur Duranın kurslarına qatılmışam. Təcrübəkeçmə, layihədə qarşıya qoyulan plan və mərhələlərə əsasən həyata keçirilmişdir. Əldə etdiyim təcrübə nəticəsində mövzu ilə bağlı geniş və

səmərəli tədqiqat aparmağa müəssər olmuşam. Layihə çərçivəsində "Əlyazmaların bədii tərtibat xüsusiyyətlərində dini-fəlsəfi aspektlər" adlı monoqrafiya başda olmaqla 13 nəşr vardır (1 kitab, 12 məqalə). Hal-hazırda 5 məqalə də çapdadır.

"Əlyazmaların bədii tərtibat xüsusiyyətlərində dini-fəlsəfi aspektlər" adlı kitabın elmi redaktorları - akademik Vasim Məmmədəliyev, Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru İlham Məmmədzadə, rəyçiləri - filologiya üzrə elmlər doktoru Kamandar Şərifov və fəlsəfə üzrə elmlər doktoru Sakit Hüseynovdur.

Nəşrdə İslam dünyasının fəlsəfi fikrini, ideologiyasını, estetik zövqünü və mədəniyyətini özündə əks etdirən əlyazmaçılığın bədii tərtibatla bağlı sahələri araşdırılıb. Əsər "İslam kalliqrafiyası", "Təzhib sənəti", "Əlyazmalarda miniatür rəsmlər", "Cildçilik" və "Əbru" fəsillərini əhatə edir.

Əlyazmaların tarixşünaslıq, mənbəşünaslıq, sənətşünaslıq, həmçinin dinin tarixi və fəlsəfəsi müstəvisində tədqiq olunması Azərbaycan əlyazmaçılığının İslam tarixində və müsəlman fəlsəfi fikrinin formalaşmasındakı rolunu təsbit edir.

Layihə rəhbəri:
Səbinə Ələsgər qızı Nemətzadə